**“TƏSDİQ EDİRƏM”**
**BSU-nun Tədris məsələləri üzrə prorektoru**

**Fikrət Cahangirov**
**04 iyul 2025-ci il**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

# Dərsliklərin, dərs vəsaitlərinin, tədris-metodik vəsaitlərinin, monoqrafiyaların, fənn proqramlarının və sillabusların hazırlanmasına verilən

## T Ə L Ə B L Ə R

*Bakı Slavyan Universitetinin Elmi-metodiki şurasının 04 iyul 2025-ci il tarixli iclasında (protokol № 01) qəbul edilmişdir.*

**Bakı – 2025**

**BSU üçün dərsliklərin, dərs vəsaitlərinin, tədris-metodik vəsaitlərinin, monoqrafiyaların, fənn proqramlarının və sillabusların hazırlanmasına verilən**

**T Ə L Ə B L Ə R**

## 1. İstifadə olunan əsas anlayışlar

1.1. Dərslik – sistemli materialları özündə ehtiva edən və təhsil proqramına daxil olan fənnin (inkişaf sahəsinin) tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsini təmin edən tədris-metodik vasitədir.

1.2. Dərs vəsaiti – təhsil proqramına (kurikuluma) daxil olan fənnin (inkişaf sahəsinin) tədrisi müddətində müəyyənləşdirilmiş məzmun standartlarının təhsilalanlar tərəfindən mənimsənilməsinə yardım edən tədris-metodik vasitədir.

1.3. Tədris-metodik vəsait – tədris məqsədləri üçün istifadə olunan kağız və ya elektron daşıyıcılarda olan resurs və ya resurs dəstidir.

1.4. Fənn proqramı – fənnin məzmununu təşkil edən kompetensiyaların həcmini, sistemini, ardıcıllığını, tədrisin xarakterini müəyyənləşdirən, fənnin konkret məqsəd, vəzifə və prinsiplərini, müvafiq elmin əsaslarını əks etdirən tədris-metodiki sənəddir.

1.5. Sillabus - fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin sərbəst işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir.

1.6. Kağız dərslik – kağız daşıyıcıda olan dərslikdir.

1.7. Rəqəmsal dərslik – rəqəmli, mətnli, qrafik, audio, video və digər materialların məcmusundan ibarət elektron daşıyıcıda olan dərslikdir.

## 2. BSU üçün dərsliklərin, dərs vəsaitlərinin, tədris-metodik vəsaitlərinin tərtibinə verilən tələblər:

2.1. Bakı Slavyan Universiteti üçün dərslik, dərs vəsaiti və tədris-metodik vəsaitlərinin tərtibi müəllim, kafedra və fakültənin təşəbbüsü ilə həyata keçirilir.

2.2. Dərslik, dərs vəsaiti və tədris-metodik vəsaitlərinin tərtibi zamanı aşağıdakı tələblər nəzərə alınır:

2.2.1. dərslik, dərs vəsaiti və tədris-metodik vəsaitlərinin İxtisasın Təhsil Proqramına uyğun hazırlanmış fənn proqramı əsasında tərtib olunması;

2.2.2. məzmunun elmi baxımdan düzgün və dəqiq, inkişafyönümlü, səriştəyönümlü, dəyəryönümlü, tərbiyəyönümlü olması, inklüzivliyin nəzərə alınması;

2.2.3. müasir pedaqoji və metodik yanaşmalara, yeni qabaqcıl nəzəriyyələrə uyğun olması;

2.2.4. fənn proqramına daxil edilmiş mövzuları əhatə etməsi, hər bir mövzuya dair sual və tapşırıqlardan, qrup işləri və layihələrdən, terminlərə aydınlıq gətirən izahlı lüğətlərdən (fənnin spesifik xüsusisiyyətləri gözlənməklə) istifadə olunması;

2.2.5. Azərbaycan Respublikası Konstitusiyasının və qanunvericiliyinin tələblərinə uyğun olması;

2.2.6. təlim materiallarının məqsədyönlülüyü, məntiqiliyi və ardıcıllığı;

2.2.8. tələbələri tədqiqatçılığa sövq edən layihə və resursların (fənnin spesifik xüsusisiyyətləri gözlənməklə) verilməsi;

2.2.9. tələbələrin müstəqil yaradıcılığlarının formalaşdırılmasına imkan yaratması;

2.2.10. təlim materiallarının tələbələrin anlama və qavrama səviyyəsinə uyğun olması, təsviri, mühakimə və tənqidi düşüncə xarakterli mətnlərin müəyyən nisbətdə təqdim edilməsi;

2.2.11. tədris materiallarının müasir texnologiyalara uyğunluğu, rəqəmsal platformalarda istifadəyə yararlılığı, interaktiv multimedia məzmunlu, video dərslər və simulyasiyaların (fənnin spesifik xüsusisiyyətləri gözlənməklə) olması;

2.2.12. dilinin aydın, səlis, qrammatik qaydalara və elmi üsluba uyğun olması;

2.2.13. qiymətləndirmə alətlərinin olması (testlər, rubriklər və özünüqiymətləndirmə alətləri).

## 3. Monoqrafiyaların yazılmasına verilən tələblər :

3.1. BSU-nun Elmi - tədqiqat strategiyası üzrə təsdiq olunmuş istiqamətlər çərçivəsində aktual bir mövzuya həsr olunması;

3.2. aparılmış elmi-tədqiqat işlərinin nəticələrini və ümumiləşdirmələrini əks etdirməsi;
3.3. tədris prosesini dəstəkləməsi;
3.4. İstifadə edilmiş ədəbiyyat siyahısında əvvəlcə Azərbaycan dilində, sonra isə türk, rus, ingilis, fransız, alman, ərəb və s. dillərdə olan mənbələrin hər bir dilin əlifba sırası ilə düzülməsi və ardıcıl olaraq nömrələnməsi;
3.5. monoqrafiyanın yazılışı zamanı istifadə olunan mənbələrə və müəlliflərə istinad edilməsi;
3.6. istifadə edilmiş ədəbiyyat siyahısında, əsasən son 10 ildə nəşr edilmiş ədəbiyyatların öz əksini tapması(AAK-ın 2019-cu il Əsasnaməsi);
3.7. terminlərin dəqiq işlənməsi;
3.8. mətnin plana uyğun tərtib edilməsi, əsas arqumentlərin əks olunması;
3.9. mətnin dilinin aydın, səlis, qrammatik qaydalara və akademik üsluba uyğun olması.

## 4. BSU-da dərsliklərin, dərs vəsaitlərinin, tədris-metodik vəsaitlərinin və monoqrafiyaların təsdiqlənməsi

4.1. Dərslik, dərs vəsaiti, monoqrafiya və tədris-metodik vəsaitlərinə müvafiq üç mütəxəssis (ikisi kənardan olmaqla) rəy verməklə kafedrada müzakirə olunur və kafedranın iclas protokolundan çıxarış və Əsaslandırılmış rəy(tədris prosesinə uyğunluq, hansı ixtisas və fənnin tədrisində istifadə edilməsi və digər fənnlərlə əlaqəsi göstərilməklə) ilə birgə Fakültə Metodiki Qrupuna təqdim olunur. Rəylər rəyçilərin imzaları və onların çalışdığı müəssisələrin möhürü ilə təsdiq edilməlidir.

4.2. Fakültə Metodiki Qrupu tərəfindən dərslik, dərs vəsaiti, monoqrafiya və tədris-metodik vəsaitlər Fakültə Elmi şurasında müzakirəyə təqdim olunur.
4.3. Dərslik, dərs vəsaiti, monoqrafiya və tədris-metodik vəsaitlər BSU-nun Elmi – Metodiki Şurasında müzakirə edildikdən və ona müsbət rəy verildikdən sonra çapa tövsiyə edilməsi və ya edilməməsi barədə müvafiq qərarın qəbul olunması üçün Universitetin Elmi şurasına təqdim olunur;
4.3.1. Dərslik, dərs vəsaiti, monoqrafiya və tədris-metodik vəsaitlərinin quruluşunda aşağıdakı ardıcıllıqlar gözlənilməlidir:
4.3.1.1. a) Üz qabığı: müəllif, dərsliyin, dərs vəsaitinin, monoqrafiyanın və tədris-metodik vəsaitlərinin adı, nəşr olunduğu yer və il;

b) Titul vərəqi: nəşr hüququ verən təşkilatın adı, qərarın tarixi və nömrəsi, müzakirə edildiyi kafedranın adı, tərtibçi (dərslik və ya dərs vəsaitidirsə), müəllif (monoqrafiya), rəyçilər, dərsliyin və ya dərs vəsaitinin təyinatı, nəşriyyat və həcmi barədə məlumat, əsərin ilk dəfə dərc edildiyi il;

c) Giriş (Dərslik, dərs vəsaiti və tədris-metodik vəsaitlər həmmüəlliflər qrupu tərəfindən hazırlanıbsa, həmmüəlliflərin hər birinə aid bölmələr girişdə göstərilməlidir);

ç) Əsas hissə (mətn, yəni proqram üzrə mövzuların açılışı, suallar, tapşırıqlar, layihələr, əlavələr və s.);

d) Ədəbiyyat siyahısı (hər bir dilin əlifba sırası ilə müəllifin, mənbənin adı, nəşr olunduğu yer, nəşr ili və səhifəsi qeyd olunmaqla);

e) Mündəricat

**5. BSU üçün dərslik, dərs vəsaiti, monoqrafiya və tədris-metodik vəsaitlərinin nəşri və işləklik müddəti**

5.1. BSU üçün dərslik, dərs vəsaiti, monoqrafiya və tədris-metodik vəsaitlərinin nəşri təhsil müəssisəsinin və yaxud şəxsin özünün hesabına həyata keçirilir.

5.2. Dərslik, dərs vəsaiti və tədris-metodik vəsaitlər Universitet tərəfindən çap olunduqda kafedra müdiri və ya fakültə dekanı təqdimatla Universitet rektoruna müraciət edir və işdə plagiat faktının aşkarlanmaması barədə müvafiq arayışı təqdim edir.

5.3. BSU-nun nəşr etdiyi dərslik və dərs vəsaitlərinin işləklik müddəti müvafiq İxtisasın Təhsil Proqramına uyğun olmalıdır.

**6. Fənn proqramının hazırlanmasına verilən tələblər:**

6.1. Fənn proqramı – fənnin məzmununu təşkil edən səriştələrin (kompetensiyaların) həcmini, sistemini, ardıcıllığını, tədrisin xarakterini müəyyənləşdirən, fənnin konkret məqsəd, vəzifə və prinsiplərini, müvafiq elmin əsaslarını əks etdirən tədris-metodiki sənəddir.

6.2. Təhsil proqramında göstərilən məcburi fənn proqramlarına BSU-nun Elmi Şurasında təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən nəşr hüququ(qrif) verilir, tədris planına BSU tərəfindən daxil

edilən seçmə fənn üzrə proqram isə BSU tərəfindən həm hazırlanır, həm də təsdiq edilir.

6.3. Fənn proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Təhsil Proqramının və Bakı Slavyan Universitetinin Elmi Şurasının qərarı ilə təsdiq edilmiş Tədris Planlarının tələblərinə uyğun hazırlanmalıdır.

6.4. Fənn proqramı kafedranın fənni tədris edən və təcrübəli elmi dərəcəsi olan professor-müəllim heyəti tərəfindən yazılmalıdır.

6.5. Proqramda verilən mövzular fənnin predmetini, mahiyyətini, əhəmiyyətini, məqsəd və vəzifələrini, obyektini, fənnin öyrənilmə metodlarını özündə əks etdirməlidir.

6.6. Fənn proqramı aşağıdakı struktura uyğun hazırlanmalıdır:

*İzahat vərəqi*

I. *Fənnin öyrənilməsinin məqsəd və vəzifələri*
II. *Təhsil Proqramının strukturunda fənnin yeri*
III. *Təhsilalanlarda fənnin mənimsədilməsi nəticəsində formalaşdırılan səriştələr ( kompetensiyalar)*
IV. *Fənnin həcmi və tədris işlərinin növləri (Fənnin modullar üzrə strukturu)*
V. *Fənn üzrə mövzular və onların qısa məzmunu*
VI. *Fənn üzrə mövzuların kredit saatlarına uyğun bölgüsü və tədris ardıcıllığı*
VII. *Təhsil texnologiyası (tədris və öyrənmə metodları)*
VIII. *Sərbəst işlərin strukturu, məzmunu və onların yerinə yetirilməsinə dair metodiki tövsiyyələr*
IX . *İmtahan sualları*
X. *Fənn üzrə qiymətləndirmə üsulları*
XI. *Təhsil Proqramı və fənn üzrə təlim nəticələri*
XII. *Məcburi və tövsiyə olunan ədəbiyyat*

6.7. Fənn proqramı üçün bir daxili və bir xarici rəy alınmalıdır. Rəylər rəyçilərin imzaları və onların çalışdığı müəssisələrin möhürü ilə təsdiq edilməlidir.

1.8. Kafedralarda tədris olunan fənn proqramları kafedra iclasında, aid olduğu Fakültə Metodiki Qrupunun iclasında və həmin Fakültənin Elmi Şurasının iclasında müzakirə olunmalı və BSU Elmi-Metodiki Şurasına tövsiyə edilməlidir.

1.9. BSU Elmi-Metodiki Şurasının qərarına əsasən müsbət qiymətləndirilmiş və rəy almış fənn proqramları təsdiq edilməsi üçün BSU-nun Elmi Şurasına göndərilir.

## 7. Fənnlər üzrə sillabusun hazırlanmasına verilən tələblər:

7.1. Sillabus - fənnin müvafiq proqramı əsasında hazırlanan və özündə tədris olunan fənnin təsvirini, onun hədəf və məqsədini, qısa məzmununu, dərslərin müddətini və növlərini, tələbənin sərbəst işi üçün tapşırıqları, onların yerinə yetirilməsi müddətini, məsləhət saatlarını, müəllim haqqında məlumatı, müəllimin tələblərini, qiymətləndirmə meyarlarını, aralıq qiymətləndirmə cədvəlini, istifadə olunan ədəbiyyatın siyahısını özündə əks etdirən sənəddir.
7.2. Sillabus fənn proqramı əsasında fənni tədris edən müəllim tərəfindən hazırlanır və kafedra iclasında müzakirə edilərək kafedra müdiri və ixtisas proqramının aid olduğu fakültənin dekanı tərəfindən imzalanaraq təsdiq edilir.
7.3. Fakültə dekanının fənnin sillabusunu imzalaması üçün ona sillabusla birlikdə fənn proqramı da mütləq təqdim edilməlidir.
7.4. Sillabus fənnin tədris olunduğu dildə hazırlanır.
7.5. Sillabusun strukturu və məzmunu aşağıdakı məsələləri əhatə etməlidir:
- Titul səhifəsində Fakültənin adı; İxtisas; İxtisas kodu; Təhsilin səviyyəsi və forması; Fənni tədris edən kafedranın adı; Fənnin adı; Fənnin kodu; Dərsin növü; Fənnin krediti; Fənnə ayrılan saatlar; Təlim metodları; Kurs; Qrup; Dərs saatları; Fənn üzrə bölmə rəhbəri; Fənn müəllimi; Tədris ili; Semestr; Fənnin xarakteri; Tədris dili; Məsləhət saatları; Fənn müəlliminin E-mail ünvanı mütləq yazılmalıdır.
İkinci səhifədən isə aşağıdakı ardıcıllıqla başlıqlar verilərək məzmunu əks etdirilir:
-Fənnin təsviri və tədris planındakı digər fənlər ilə əlaqəsi.
-Fənnin məqsəd və vəzifələri.
-Tədris metodları:
-Fənn üzrə təlim nəticələri.
-Fənnin tədrisinin sonunda tələbənin yiyələndiyi ümumi kompetensiyalar:
-Dərsə münasibət və müəllimin tələbləri:
-Fənn üzrə tədris olunan mövzuların adları. Hər bir mövzunun fənnin hansı təlim nəticəsinə uyğun gəlməsi mövzunun qarşısında mütləq qeyd edilməlidir.
-Tələbələrin sərbəst iş üzrə mövzuları (yerinə yetirilmə müddəti göstərilməklə)
-Qiymətləndirmə: Fənnin tədrisi prosesində təlim naliyyətlərinin qiymətləndirilməsində istifadə olunana üsullar konkret müəyyənləşdirilmiş meyarlara əsaslanaraq, tələbənin fənn üzrə əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir.
- Tələb olunan dərsliklər və əlavə ədəbiyyat: Son illər çap olunmuş əsas dərslik, dərs vəsaitləri və tövsiyə olunan əlavə mənbələr göstərilir. Tövsiyə olunan mənbələrin

siyahısında həm çap, həm də elektron resurslar (məlumat bazası, vebsayt və s.) qeyd olunur.

7.6. Hər semestr üçün professor-müəllim heyəti tədris etdiyi fənlərə uyğun sillabus hazırlayır. Bayram günlərinə düşən dərs saatları isə sillabusda "Bayram" kimi göstərilir. Bu zaman semestr ərzində bayram günlərinə düşən dərslər növbəti dərslərə birləşdirilir və həmin dərslərin vaxtında tədris olunur.

7.7. Tələbələr sillabus ilə dərsin birinci günündə tanış olmalıdırlar.

**Razılaşdırılımışdır:**
**Bakı Slavyan Universitetinin hüquqşünası:** **Əskərova N.N.**